**“İTi Zəka”  uşaqlar arasında hakaton müsabiqəsinin**

# ƏSASNAMƏSİ

**Bakı – 2022**

## 1. Ümumi müddəalar

**1.1** “İTi zəka” uşaqlar arasında hakaton müsabiqə (bundan sonra - müsabiqə) Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 27 noyabr 2020-ci il Sərəncamı ilə təsdiq edilmiş “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın müddəalarına əsasən (5.1.13 Uşaqların zərərli informasiyadan qorunması üçün tədbirlərin gücləndirilməsi; 5.4.16 Uşaqların internet məkanında, sosial şəbəkələrdə zərərli informasiyadan qorunması istiqamətində təbliğat-təşviqat işinin aparılması, maarifləndirici vəsaitlərin hazırlanması, informasiya təhlükəsizliyi sahəsində onların bilik və bacarıqlarının artırılması üçün təlimlərin keçirilməsi) Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (bundan sonra – Dövlət Komitəsi) və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) tərəfindən keçirilir.

**1.2** Bu Əsasnamə müsabiqənin məqsədlərini, şərtlərini, mərhələlərini və iştirakçıların mükafatlandırılması qaydalarını müəyyən edir.

**1.3.** Müsabiqənin gedişi ilə bağlı məlumatlar Dövlət Komitəsinin (www.scfwca.gov.az ) və Agentliyin rəsmi internet və sosial media səhifələrində yerləşdirilir.

## 2. Müsabiqənin məqsədi

**2.1** Uşaqlara öz hüquqlarının təmin edilməsi istiqamətində təşəbbüs irəli sürmək, innovativ həll yolları təklif vermək imkanı yaratmaq;

**2.2** Uşaqlar arasında innovativ fəaliyyəti stimullaşdırmaq və sağlam rəqabəti formalaşdırılması;

**2.3** Uşaqların intellektual inkişafının stimullaşdırılması, onlarda sərbəst düşünmə və problem həlletmə bacarıqlarının inkişaf etdirilməsi;

**2.4** Komandada işləmək bacarığını inkişaf etdirilməsi;

**2.5.** İstedadlı uşaqların cəmiyyətə tanıdılması.

**2.6.** Uşaqlar arasında yeni ideyaların dəstəklənməsi;

## 3. Müsabiqənin şərtləri

**3.1** Müsabiqədə 12-17 yaş kateqoriyalı (Bakı şəhəri üzrə), İT sahəsində müəyyən biliklərə malik uşaqlar iştirak edə bilərlər.

**3.2** İştirak etmək istəyən uşaqlar 6 dekabr 2022-ci il tarixinədək Dövlət Komitəsinin rəsmi səhifəsində yerləşdirilmiş elektron müraciət formunun linki vasitəsilə, eləcə də hakaton@scfwca.gov.az elektron poçt ünvanına müraciət ünvanlayaraq qeydiyyatdan keçə bilərlər.

**3.3** Müsabiqə aşağıdakı mövzuları əhatə edəcək:

- Uşaq inkişafı;
- Təhsil və uşaqlar;
- Zorakılıqdan müdafiə;
- Uşaqların informasiya təhlükəsizliyi;
- Uşaqların asudə vaxtı.

**3.4** Layihələr "Microsoft Power Point" proqramında hazırlanmalı və 3 dəqiqədən artıq olmamalıdır.

## 4. Müsabiqənin mərhələləri

**4.1 Birinci mərhələ -** 12 dekabr 2022-ci il tarixində keçiriləcək müsabiqənin birinci mərhələsində 3 nəfərdən ibarət komandalar verilən vaxt ərzində, mentorların dəstəyi ilə ideyalarını layihə şəklində hazırlayacaqlar. Layihələr münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Verilən tapşırığı innovativ yollarla həll etməyi bacaran 10 komanda finala vəsiqə qazanacaq.

**4.2.** Bu mərhələ 2 hissədən ibarətdir. Birinci hissə komanda quruculuğu oyunu formasında təşkil ediləcəkdir. İştirakçılar komanda formasında verilən mövzuda verilmiş ləvazimatlar vasitəsilə yaradıcı iş hazırlayacaqlar. Bu proses üçün komandalara 30 dəqiqə hazırlıq, 5 dəqiqə isə təqdimat üçün veriləcəkdir. Proses zamanı iştirakçılar mentor dəstəyindən istifadə edə və nəticələrin hesablanması zamanı nəzərə alınacaq xal qazana bilərlər.

İkinci hissə - hakaton mərhələsidir. Komandalara bu mərhələdə qeyd edilən mövzularda yeni yanaşmanın rəqəmsal həll konseptinin hazırlanması tapşırılacaqdır. Rəqəmsal həllər "Microsoft Power Point" formatında təqdim edilməlidir. Komandalara bu mərhələ üçün hazırlıq məqsədilə 1saat veriləcəkdir. Təqdimat üçün isə 10 dəqiqənin verilməsi nəzərdə tutulur. Bu mərhələdə də komandalar şəklində mübarizə aparıb, komanda olaraq qiymətləndiriləcəklər.

Komandalar "Harvard ManageMentor" liderlik proqramı meyarları əsasında qiymətləndiriləcək.

**4.2. İkinci mərhələ - Final -** 13 dekabr tarixində baş tutacaq final tədbiri zamanı ən yaradıcı ideyanın müəllifi olan ilk 3 komanda münsifləri heyəti tərəfindən səsvermə yolu ilə qalib seçiləcək.

## 5. Qiymətləndirmə meyarları

**5.1.** Layihələr aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

Münsiflər komandaları aşağıda qeyd edilən kriteriyalar əsasında, 10 ballıq sistem üzrə qiymətləndirəcəklər:

- innovativ yanaşmanın tətbiqi,
- resursların düzgün bölgüsü,
- prosesə strateji yanaşma,
- sosial məsuliyyət,
- rəqəmsallıq,
- təqdimat bacarıqları.

**5.2.** Qiymətləndirmə zamanı komandaların vaxtın idarə edilməsi, nəticə yönümlülük, komanda işi və effektiv kommunikasiya bacarıqları üzrə mentorların dəyərləndirməsi də nəzərə alınacaq.

## 6. İştirakçıların mükafatlandırılması qaydaları

**6.1.** Münsiflər tərəfindən səsvermə yolu ilə müəyyən edilmiş 3 (üç) ən bacarıqlı komanda sertifikatla yanaşı qiymətli hədiyyələrlə təltif edilir.

**6.2.** Digər bütün iştirakçılar sertifikatla təltif edilirlər.

## 7. Müsabiqənin yekunu

**7.1.** Qrup halında iş təqdim edən komandalardan qalib olanlara (hər birində 3 komanda üzvü olmaqla, 3 komanda) mükafat və sertifikatlar təqdim edilir.

**7.4.** Müsabiqənin yekunları haqqında məlumat təqdimat mərasimindən sonra Dövlət Komitəsinin rəsmi internet səhifələrində yerləşdirilir.